sənətkarlardan biri idi aşıq Cəlal. Elinin-obasının sazında, sözündə, ürəyində, yaddaşında yaşayır. Saz çalmaqda və oxumaqda bənzərsiz sənətkar olmuşdur. Aşıq Cəlalın söz qatarından bir nümunəni sizlərə ərməğan edirik:

## Dünya

*Beş günlük səndə qonağam,*
*De, hörmətin hanı, dünya?!*
*Tökürsən qaşqabağını,*
*Edirsən tufanı, dünya.*

*Yaranmışıqsa, hədərik,*
*Pis baxarsan qəm edərik,*
*Hamımız gəldi gedərik,*
*Sən fanisən, fani, dünya.*

*Bir-birinə verdi meyli,*
*Əzab çəkdi Məcnun-Leyli,*
*Getdilər səndən gileyli,*
*Ələsgər, Qurbani, dünya.*

*Tamam idi ağlı başda,*
*Yaradırdı hər baxışda,*
*Nakam qoydun əlli yaşda,*
*Vurğun tək insanı, dünya.*

*Çoxları səndə ucaldı,*
*Çoxlar vədəsiz qocaldı,*
*Qəmlənən Aşiq Cəlaldı,*
*Etmə nahaq qanı, dünya!*

**Toplayanı və redaksiyaya təqdim edəni:**
**Kazım KAZIMLI**